# Cinayət və cinayətkarlığın psixo-sosial səbəbləri



## İnsan necə bir varlıqdır?

İnsan həm müstəqil , azad və muxtar olma və həm də ictimai olma ehtiyacları olan bir varlıqdır. Bir tərəfdən fərdi, müstəqil olmağa çalışarkən digər tərəfdən insanlarla birlikdə olmağı istəyir. Fərdi olma ilə ictimai olma arasında özünə xas bir tarazlıq qurmağa səy göstərir.

Fərqli yanaşma və görüşlər olsa da , ümumiyyətlə, insanın necə bir insan olduğunu onun ən yaxın ətrafından başlayaraq içində olduğu cəmiyyət və insanın bunlarla qarşılıqlı əlaqəsi təyin edər. Ancaq insane həm də bu şərtlərin təsirinin xaricinə çıxa biləcək bir varlıqdır...

İnsan mənfi ekoloji şərtlərlə başa çıxa biləcək səyə və iradəyə sahib aktiv bir varlıq olaraq da qiymətləndirilir.

Uyğun şərtlərdə yaşamaq fürsətləri verilsə özünü inkişaf etdirə bilən, öz qoyduğu məqsədlər uğruna özünü reallaşdırmağa çalışan bir varlıqdır.

Maslovun nəzəriyyəsinə görə insanların ən fundamental həyati ehtiyaclarından ən inkişaf etmiş fərdi böyümə və inkişaf ehtiyaclarına doğru sıraya görə beş təməl ehtiyacları vardır.

1. Özünü reallaşdırma
2. Özünə hörmət , dəyər və güvən
3. Aid olma , ictimai tələblər və sevgi
4. Təhlükəsizlik , sığınma və qorunma ehtiyacı
5. Fiziki varlığını davam etdirmə ehtiyacı.

   İnsan 5-dən 1-ə bu ehtiyaclarını qarşılamağa yönələn bir varlıqdır. Ancaq bəzən bu tələbləri qarşılama sırası dəyişə bilər.

## İNSAN - qaydalar və cəmiyyət

Fərd cəmiyyətlə İNSAN olur , cəmiyyətlə varlığını həyata keçirir. Lakin insan özünü reallaşdırmanın əvəzini özünü məhdudlaşdıraraq ödəyir. Bir tərəfdə “mən”, bir yanda “o birilər”, yəni cəmiyyət ...

- İnsan özünə qayda qoyan , normalar , meyarlar yaradan tək canlıdır. Qaydalar qoyar , digər insanlarla ortaq davranış formaları meydana gətirər , ortaq dəyərlər və simvollar yaradar. Onları adət , ənənə , əxlaq , din , hüquq təşkilatları olaraq nəsildən nəsilə köçürərək yaşamasını təmin edər. (***etik normalar da insanın özünə qoyduğu mədəni qadağalardı)***

- İnsan həyatının hər mərhələsində ictimai , dini , hüquqi qaydalara uyğun gəlmək üçün özünü məcbur edər. Çünki qaydalar çox zaman fərdi motivlər ilə ziddiyyət təşkil edər. Bu səbəblə bu qaydaları sıxlıqla pozmaqdadır. Cəmiyyət həyatı sanki *"mən"lər* ilə qaydaların bir qarşıdurma sahəsi və eyni zamanda könüllü və ya könülsüz bir uzlaşmasıdır .

- Hər ictimai qaydalara qarşı çıxış və onlardan ayrılış ya cəmiyyətin özbaşına reaksiyasıyla *(qınamaq, ayıblamaq, gülünc obyekti etmək, alçaltmaq, kənarlaşdırmaq)* və ya mütəşəkkil güclərin sanksiyası ilə *( qanunlar, qaydalar )* insanın qarşısına çıxar.

- İnsan qayda qoyduğu qanun etdiyi kimi, bunları pozar, dəyişdirər, inkişaf etdirər də

- Cəmiyyət dəyişmə və inkişaf halındadır. Elmi tərəqqi və texnoloji inkişaflar həyat şərtlərini sürətlərini dəyişdirməkdə, buna qarşılıq ənənə, adət, əxlaq, din, hüquq kimi təşkilatlar bu dəyişməyə daha yavaş uyğunlaşma təmin etməkdədir.

- İnsanlıq tarixi , yaxşı-pis , doğru-yanlış , mühakimə , cinayət anlayışının , davranış qəliblərinin , cəmiyyətin konkret həyat şərtləri tərəfindən təyin olunduğunu və dəyişə bilmə nümunələri sərgiləməkdədir. Məsələn, bəzi cəmiyyətlərdə oğurluq , uşaq öldürmə , adamyeyənlik kimi davranışlar tərifə dəyər sayılarkən, digərlərində cəzasını çəkməklə nəticələnir . Yenə bəzi primitiv cəmiyyətlərdə qız uşaqlarının öldürülməsi və yaşlıların, əlillərin diri-diri basdırılması ictimai baxımdan qəbul edilə bilər davranışlar olaraq görülər.

- Yaxşı-pis , doğru-yanlış davranış qəlibləri , dəyər mühakimələri , əxlaq normaları, cinayət anlayışı cəmiyyətdən cəmiyyətə dəyişməkdədir. Mütləq deyil, nisbidir. Dövrümüzdə də cəmiyyətlər müxtəlif sivilizasiya səviyyələrində yaşamaqda , fərqli əxlaq anlayışları, fərqli ənənələr, hüquq sistemləri və dəyişik rəhbərlik formaları ilə varlıqlarını davam etdirməkdədirlər.

- Kohlberg'in Əxlaq və Nəsil İnkişafı qaydasına görə insanın yaşamında bir-birini izləyən üç əxlaq inkişaf dövrü vardır:

1. Kiçik yaşlı uşaqlar qaydaların ana ataları tərəfindən qoyulduğunu və dəyişməz olduğunu düşünürlər;
2. Cinayətin böyüklüyünü qiymətləndirərkən günahkarın məqsədini diqqətə almazlar.
3. İlk məktəb dövründə ictimai qaydalar öyrənilər və böyük əhəmiyyət daşıyar. Qanun və qaydalar anlayışı inkişaf edər. Yetkinlik və gənclik dövründə isə ictimai kontraktları və fərdi əxlaq anlayışı inkişaf edər. Cəmiyyət tərəfindən qəbul olunmuş insan hüquqları anlayışı inkişaf edər. Ancaq bu əxlaq anlayışı inkişafında fərdi və ictimai fərqlər vardır..

***Cinayət nədir?***

Cinayət - insanın ictimai bir varlıq olması və fərdin cəmiyyətlə qarşıdurması səbəbiylə keçmişdən bəri mövcud olan və gələcəkdə də davam edəcək bir faktdır.

İnsan , cəmiyyət içində yaşayaraq, özünü müşahidə edərək və məhdudlaşdıraraq cəmiyyətin

bir üzvü olarkən bir tərəfdən mədəniyyətin, sivilizasiyaların inkişafına kömək olarkən digər tərəfdən cəmiyyət tərəfindən qəbul edilməyən davranışların da ortaya çıxmasına gətirib çıxarar.

***Cinayət bir növ xəstəlikmidir?*** Hər cəmiyyətdə görülən ictimai qaydalara , qanunlara qarşı davranışlar əsrlər boyunca mütəfəkkirləri, idarəçiləri, hüquqçuları və elm adamlarını yaxından maraqlandırmışdır. Keçmiş tarixi zamanlarda günahı ruhun bir xəstəliyi olaraq düşünmüşlər. Orta çağlarda isə cinayət, şeytani bir davranış və pis ruhların təsiriylə ortaya çıxan bir hərəkət olaraq görülmüşdür. Bəzi köhnə mütəfəkkirlər günahı bir xəstəlik olaraq görərkən digərləri cinayət səbəblərini fərdin xaricində ictimai ətrafda, yoxsulluq, iqtisadi problemlər, dəyişmələr kimi ictimai şərtlərdə axtarmışlar.

*(Statistikaya görə son illərdə cinayət məsuliyyətinə cəlb olunanların əksəriyyəti 1989\1999 illərdə doğulmuş gənclərdir. PTST, ictiami tarixi şərait, qaçqın və məcburu köçkünlük və psixoloji diversiyalar)*

## Cinayətkarliq nədir?

Cinayətkarlıq tərifi bir-birindən çox fərqli faktları əhatə edir. Biletini ödəmədən qatara minən də, oğurluq edən və adam öldürən də günahkardır. Ayrıca günahkarlıq hüquqi ya da əxlaqi qaydaların pozulması olaraq da bilinir. Kiçik ya da böyük bir ictimai qrupun üzvləri tərəfindən yaxşı, faydalı deyə qəbul edilmiş olan inancların, ənənə və adətlərin, təşkilatların söykəndikləri qaydalara zidd olaraq işlənmiş olan anti -ictimai bir davranış cinayətkarlıq kimi dəyərləndirilir. Bir davranış və ya hərəkət, müəyyən bir ölkənin və dövrün adət, ənənə, qayda və düşüncələriylə ziddiyyət halında olarsa cinayət sayılar.
Cinayət anlayışı, cəza hüququnda göstərildiyi kimi qanunun cəzalandırdığı hərəkət olaraq ələ alına bilməyəcək qədər mürəkkəb və çox istiqamətlidir. Cinayətkarlığa psixoloji, sosioloji, iqtisadi və hüquqi istiqamətləri əhatə edəcək bir anlayışla baxmaq lazımdır.

## Cinayətkar kimdir?

Cinayətkar uşaq və gənc yoxdur, cinayətə itələnilmiş uşaq və gənc (*ümumi anlamda-insan*) vardır. Psixologiyada illər boyu aparılan araşdırmalar göstərmişdir ki, xüsusilə inkişaf dövrlərində insanın içində yaşadığı şərtlərin onun necə bir insan olacağına, şəxsiyyətinə böyük ölçüdə təsir edir. Bu səbəblə günahkar kimdir?-qiymətləndirməsini edərkən fərdin cinayətini yalnız onun fərdi bir vəziyyəti olaraq qiymətləndirmək, içində yetişdiyi mənfi ictimai şərtləri göz ardı etmək, bu günün elmi anlayışına görə qeyri-mümkündür. Bu səbəblə cinayətkarlığın qiymətləndirilməsində bu vəziyyəti hazırlayan mənfi ictimai ətrafın da nəzərə alınması lazımdır.

## Cinayətkarın şəxsiyyəti

Cinayətkarın şəxsiyyəti dedikdə fərdin bu və ya digər cinayət əməlini törətməsini şərtləndirmiş tipoloji keyfiyyətlərin məcmusu başa düşülür. Cinayətkarın şəxsiyyəti anlayışı özünə biofizioloji, sosial-demoqrafik, sosial-psixoloji, intellektual, emosional, iradi, eləcə də funksional əlamətlərin kompleksini daxil edir.
Biofizioloji əlmatlərə cins, yaş, səhhətin vəziyyəti, sinir sisteminin xüsusiyyətləri və s. aid edilir. Sosial-demoqrafik əlamətlərə cins, yaş, ailə vəziyyəti, təhsil, professional məşğuliyyət növü, maddi vəziyyət, məhkumluq haqda məlumatlar aid edilir. Bu əlamətlər öz-özlüyündə

subyekti hər hansı cinayəti törətməyə meyilli olan insan kimi xarakterizə etməsə də, digər xüsusiyyətlərlə əlaqələndirdikdə həmin insan haqda ətraflı təsəvvür yaradır. Məsələn, tədqiqatlar göstərir ki, cinayətkarlar arasında qadınlara nisbətən kişilər üstünlük təşkil edir. 25-29 yaşlı şəxslər daha çox kriminogen fəallığa malik olur. Onların ardınca 18-24, 14-17, ən nəhayət 30-35 yaşlı şəxslər gəlir. Qətl, sağlamlığa xəsarət yetrimək, soyğunçuluq, oğurluq, xuliqanlıq 30 yaşına qədər şəxslər tərəfindən törədilir. Əksər müəlliflər fikrincə gənclərin kriminogen fəallığı onların aşağı emosional sabitliyi, yüksək impulsivliyi, aqressivliyi, sosializasiyanın lazmi səviyyədə olmaması, sabit həyat planlarının olmaması ilə bağlıdır. Cinayət törədənlərin ümumi təhsil səviyyəsi bir qayda olaraq aşağıdır. Zorakı və zorakı-tamahkar cinayətlər törədən şəxslərin təhsil səviyyəsi aşağıdır. Təhsil səviyyəsi nisbətən yüksək olan şəxslərin arasında daha çox vəzifə cinayətlərinin törədilməsi üstünlük təşkil edir.

Sosial-psixoloji əlamətlərə isə 4 mühüm alt struktur daxil edilir:

1. İstiqamətlər - şəxsiyyətin nisbətən sabit, sosial cəhətdən əhəmiyyətli keyfiyyətlərinin məcmusudur (sərvət meyilləri, sosial ustanovkalar, aparıcı motivlər).
2. Təcrübə altstrukturu- bura aparıcı fəlaiyyət formalarının seçimində təzahür edən bilik, vərdiş, adətlər və s. keyfiyyətlər daxildir.
3. Psixi inikas formaları altstrukturu - bunlar idrak proseslərində, emosional vəziyyətdə təzahür edir.
4. Temperament və digər bioloji, irsi cəhətdən şərtlənmiş altstrukturdur.

İntellektual əlamətlərə əqli inkişaf səviyyəsi, biliklərin həcmi, həyat təcrübəsi, maraqların məzmunu və rəngarəngliyi və s. aiddir. Emosional əlamətlərə sinir proseslərinin gücü, müvazinəti, hərəkətliliyi, hislərin dinamikliyi, emosional oyanıqlıq səviyyəsi, müxtəlif qıcıqlayıcıların reaksiyası, gücü və tempi və s. aiddir. İradi əlamətlərə öz fəaliyyətini şüurlu olaraq tənzimləmək qabiliyyəti, qarşıya qoyulmuş məqsədə çatmaq, qərar qəbul etmək və bu qərarı həyata keçirmək qabiliyyəti, dözümlülük, məqsədyönlülük, təşəbbüskarlıq, inadkarlıq və s. aiddir. Funksional əlamətlər (sosial rollar) dedikdə şəxsin müəyyən sosial qrupa (*dini radikal qruplaşmalar istisns deyil)* mənsub olması və ictimai münasibətlər sistemindəki mövqeyi ilə şərtləndirilən real sosial funksiyalar başa düşülür**.**

## <u>Cinayətkarın şəxsiyyətinin tipologiyası</u>

Cinayətkarların müxtəlif kriteriyalara görə bir çox tipologiyaları məlumdur.

İctimai təhlükəlilik dərəcəsinə görə aşağıdakı cinayətkar tipləri fərqləndirirlər (Minkovskiyə görə):

**I. Təsadüfi tip** - bu tipə təsadüf nəticəsində cinayət törətmiş şəxslər daxildir. Bu şəxslərin cinayətkar davranışı onların ümumi istiqaməti ilə təzad təşkil edir. Bu qrupa ilk dəfə cinayət törədən, lakin şəxsiyyətinin ümumi istiqaməti müsbət olan şəxslər daxildir.

**II. Situativ və qeyri-sabit tip** - bu tipə daxil olan şəxslərin istiqamətində ümumi qeyri-sabitlik var. Bu qeyri-sabitlik həmin şəxslərin müvafiq konfliktli şəraitdə cinayət törətməsinə zəmin yaradı**r.**

**III. Qəzəbli (qəddar) tip** - dəfələrlə cinayət törətmiş və əvvəllər məhkum olunmuş şəxslər bu tipə aiddir.

**IV. Xüsusi təhlükəli tip** - bura ağır cinayət törətmiş xüsusi təhlükəli residivistlər daxildir. Bu şəxslərdə sabit antisosial yönümlər və dəyərlər sistemi formalaşmışdır.

## Cinayətin xarakterinə görə də cinayətkarların 3 tipi fərqləndirilir:

**I. Tamahkar tip** - bu şəxslər çox məhdud, eqoist maraqların, maddi tələbatların daim artması ilə xarakterizə olunur. Elmi ədəbiyyatda tamahkar tipə aşağıdakı tiplər aid edilir:
*Həris tip* - simic, hərisdir, dəyərli şeyləri onları toplamaq naminə oğurlayır. Onların daimi iş yeri olur. İş yerində hörmətə malik olurlar. Onlara etibar edirlər. Bu insanların arasında profesionallar da var.
*Özünü təsdiqləyən tip* - qarət, oğurluq və s. tamahkar əməllər törədir ki, ətrafdakıların gözündə özünü təsdiq etsin. Bu tip hesab edir ki, tamahkar cinayətin törədilməsi insanlara özünü göstərməyin ən uğurlu yoludur.
*Dezadaptiv tip* - bura residivistlər aiddir. Onlar üçün oğurluq, qarət, narkotik dövrüyəsi, qaçaqmalçılıq və digər mülkiyyət xarakterli cinayətlər mövcudluq, yaşamaq üçün vasitə əldə etməyin yoludur. Onların adətən ailəsi, iş yeri olmur. Orta və yuxarı yaşlı insanlardan ibarətdir.
*Ailə tipi* - cinayəti ailənin tələbatını ödəmək üçün törədir. Ailənin qidalanmasından tutmuş, övladının təhsilinə qədər. Bu insanlar özləri çox yığımcıl adam ola bilər və özlərinə oğurladıqlarından heç bir şey götürməyə də bilərlər. Bu şəxslər çox da ictimai təhlükəli tip deyillər.
*Oyunçu tip* - onlar üçün hər cür cinayətin törədilməsi təhlükə və risklə dolu oyundur. Onlar üçün qarət prosesinin özü əhəmiyyətlidir.
*Alkoqolizasiya və narkomaniyaya meyilli tip* - bura spirtli içki və narkotik maddələrdən patoloji asılı olan insanlar aiddir. Cinayət bu maddələri əldə etmək üçün törədilir.

**II. Zorakı tip** - zorakı tip üçün xarakterik cəhət emosional kütlük, impulsivlik, aqressivlik, xüsusi amansızlıq xarakterikdir. Əksər cinayətləri sərxoş vəziyyətdə törədirlər. Zorakı tip cinayətkarlar arasında cinsi xarakterli cinayət törədənləri, eləcə də, qatilləri, xüsusi fərqləndirirlər.
Elmi ədəbiyyatda seksual xarakterli cinayət törədən cinayətkarların aşağıdakı tiplərini fərqləndirirlər:
*Ovçu tip* - tanımadıqları qadınlara qəfil hücum edir.
*Reqressiv tip* – 7/14 yaşlılara hücum edir.
*Total özünütəsdiq edən tip* - zərərçəkmişə hücum etməzdən əvvəl onun yanındakı adamı qətlə yetirir.
*Konform tip* - qrupun təsiri altında bu xarakterli cinayəti törədir.
*Affektiv tip* - 7 yaşına qədər qızlara və yaşlı qadınlara hücum edir.
*İmpulsiv situativ tip* - onlar üçün əlverişli situasiyada bu cinayəti törədirlər.
*İmtina edilən tip*- əqli gerilik, psixi anomaliyası olan şəxs öz cinsi tələbatını başqa yolla ödəyə bilmir və bu cinayətə əl atır.
*Passiv oyunçu tip* - qadınların provokasiyası nəticəsində cinayət törədir.

**Zorakı cinayətkarlar arasında qəzəbli və təsadüfi qatilləri də fərqləndirirlər.**

***Qəzəbli qatillər*** - çox ciddi xroniki, emosional-psixoloji gərginlik, həyəcanlılıq hesabına ən əhəmiyyətsiz səbəbdən impulsiv hərəkətlər edir, bu yolla daxili gərginliklərini zəiflətməyə çalışırlar. Öz sabit antisosial yönümləri, mənəviyyatsızlıqları ilə fərqlənirlər. Cəmiyyətin tələblərinə riayət edən nümunəvi şəxslərə nifrət edirlər.
***Təsadüfi qatillər*** - bu şəxslər adətən qətli affekt vəziyyətdə qorxudan, ya da zərərçəkənin

provokasiyaları nəticəsində törədirlər. Bu şəxslər üçün xarakterik xüsusiyyət davranışın tənzimində, özünə nəzarətdə nöqsanların olmasıdır.
Bir qayda olaraq, bu tip qatillərdə uzunmüddətli neqativ emosional yaşantıların, iztirabların toplanması nəticəsində konfliktli situasiyaları hüquqi yolla həll edə biləcəklərinə inamsızlıq yaranır və onlar bu cür situasiyadan normal çıxa bilmirlər. Nəticədə ekstremal şəraitdə qətl törədirlər.

Qatillər arasında xüsusi olaraq **killerlər** diqqəti cəlb edir. Killerlərin 90%-ni 20-35 yaşları arasında kişilər təşkil edir. Onların əksəriyyəti hərbi xidmətdə olmuş, hüquq mühafizə orqanlarında işləmiş şəxslər, professional idmançılar, qaynar nöqtələrdə olmuş şəxslərdən ibarət olur, silahla yaxşı davranmağı bacarırlar.
Öz növbəsində killerlərin də müxtəlif tiplərini fərqləndirirlər:
***Bir profilli killerlər*** - bunlar profesional killerlərdir, yalnız sifarişlə qətllər törətməkdə ixtisaslaşırlar.
***Çox profilli killerlər*** - müxtəlif cinayətlər, o cümlədən sifarişli qətllər törədənlər.
***Diletantlar*** - onlar üçün qətl pul qazanmaq yoludur, lakin daimi gəlir mənbəyi deyil.

**Cinayəti törətmək üsuluna görə killerlərin aşağıdakı tipləri fərqləndirilir:**
**Atıcılar** - odlu silah vasitəsi ilə qətl törədirlər.
**Snayperlər** - qətli uzaq məsafədən törədirlər.
**Partlayıcı vasitələrlə qətl törədənlər** - bəzən bu şəxslərin partlayıcılarla işləmək təcrübəsi olmur, yaxud keyfiyyətsiz partlayıcı maddələrdən istifadə edirlər, bu da istənilən nəticəyə səbəb olmur. Belə ki, partlayıcı ya lazımi vaxtdan əvvəl, ya da sonra işə düşür.
**Digərləri** - bu killer qətli soyuq silah, metal, ağac predmetlər, elektrik cihazlar, avtomobil və kimyəvi maddələr vasitəsilə törədir, çox vaxt qətli özünə sui-qəsd kimi qələmə verməyə çalışırlar.
**Professional killerlər** - yüksək təcrübəli keçmiş hərbiçi, hüquq mühafizə orqanlarının işçisi, atıcı-idmançılardan ibarət olur.
**Qeyri-profesional killerlər** - bunlar qeyri-profesional, lakin zorakı xarakterli cinayətlər yönümlü şəxslərdir.
**Birdəfəlik killerlər** - məişət zəminində sifarişlə qətllər törədir. Bir qayda olaraq onları başqa sifarişli qətllərə cəlb etdikdən sonra aradan götürürlər.

Killerləri motivasiya sahəsində zorakı və tamahkar amillər birləşdirir. Profesional killerlər üçün xarakterik xüsusiyyətlər - qorxu hissinin olmaması, soyuqqanlılıq, eqoizm, riskli əməllərə meyil, məqsədə nəyin bahasına olursa olsun çatma, aqressivliyin olmaması, öz emosiyalarına nəzarət edə bilmək və s. Onlar adi şəraitdə aqressiv deyillər, yalnız iş zamanı aqressivlik nümayiş etdirirlər. Bu şəxslərdə qətlə yetirməyə mənəvi, psixololi, fiziki meyillilik var. Onlar təkcə mənfəət axtarmırlar. ancaq öyrəşdikləri, yaxşı bacardıqları işi edirlər. Müəyyən mənada bu işdən mənəvi zövq almağa çalışırlar. Hesab edirlər ki, cəmiyyətdə lazımdırlar, onlara tələbat var. Əksəriyyəti əlverişsiz ailələrdəndir. Çalışırlar ki, zərərçəkmiş haqda çox informasiyaya malik olmasınlar ki, sonra özlərinə təskinlik verə bilsinlər. Hesab edirlər ki, onların öldürdükləri şəxs buna layiqdir. Onlarda "robinqud" sindromu var. Tamahkar killerlər isə aqressivdirlər. Çox həyəcanlı, kinli və konfliktlərə meyillidirlər.

**III. Tamahkar-zorakı tip -** bu tip yuxarıda nəzərədən keçirdiyimiz tamahkar və zorakı tipin xüsusiyyətlərini özündə cəmləşdirir. Tamahkar-zorakı tip şəxslər cinayətkar mühitdə hökmranlıq, xüsusi amansızlıq və kobudluq nümayiş etdirirlər.

Sosial adaptivlik xüsusiyyətindən asılı olaraq da cinayətkarların iki tipini fərqləndirirlər (Romanovun tipologiyası): sosial adaptiv və sosial dezadaptiv.

Ümumiyyətlə, sosial adaptivlik xüsusiyyəti ən müxtəlif, o cümlədən kriminal situasiyada insanın davranışına, sosial mühitlə münasibətinə, gündəlik davranış taktikası seçməsinə, ətrafdakı insanlarla münasibətinə, müxtəlif konflikləri hüquqi və ya hüquqazidd yollarla həll etməsinə təsir göstərir.

**Sosial adaptiv tip -** yüksək emosional-iradi sabitliyə malikdir. Stressə qarşı çox dözümlüdür. Çətin situasiyalarda fəal reaksiya tipi nümayiş etdirir. Sinir sistemi güclüdür. Yaxşı inkişaf etmiş intellektə malikdirlər. Təfəkkürləri çevikdir. Bunların hesabına bu və ya digər cinayətin törədilmə üsulunu asanlıqla mənimsəyir. Təkcə cinayət törədilən zaman yox, həm də sonrakı şəraitdə hüquq-mühafizə orqanlarının tədbirlərinə qarşı aktiv müqavimət göstərir və hadisələrin sonrakı cərəyanını asanlıqla proqnozlaşdıra bilir. Bu insanların çox geniş maraq dairələri, yaxşı yaddaşları, iti qavrayışları var. Onların motivasiya sahəsində nailiyyət motivi üstünlük təşkil edir. Bu şəxslər bilərəkdən cəmiyyətdə qəbul edilmiş davranış qaydalarına məhəl qoymur. Bütün bu keyfiyyətlər hesabına bu şəxsləri bəzən ifşa etmək olmur. Onlar kriminal təcrübəyə əsaslı yiyələnir. Bu tip şəxslər adətən müxtəlif cinayətkar qruplarda lider, aktiv iştirakçı olur. Yüksək sosial adaptivlik xüsusiyyəti qəzəbli və xüsusi təhlükəli tiplərdə müşahidə olunur. **(Bu tip çox daha təhlükəliliyi ilə fərqlənir)**

**Sosial dezadaptiv tip -** bu tipli şəxslərdə emosional-iradi sabitlik aşağıdır. Stressə dözümsüzdürlər, nevrotik simptomlar, qeyri-sabit, epileptoid aksentuasiya tipi, psixi anomaliya, psixopatik keyfiyyətlərlə fərqlənirlər. İntellektləri, proqnostik qabiliyyətləri zəif inkişaf edir. Bu subyektlərin davranışları primitiv tələbatlarla şərtlənir. Vaxtlarını əyləncələrdə, spirtli içki içmək, narkotik maddə qəbul etməklə keçirir. Maraq və sərvət meyilləri primitivdir. Ona görə də onlar üçün davranışlarını proqnozlaşdırmaq çətindir. Öz ani tələbatlarını təmin etməyə çalışırlar. Bu tələbatlar həmişə təmin edilə bilmədiyindən bu şəxslərdə nəzarət olunmayan frustrasiya vəziyyəti təzahür edir. Çox güclü aqressivlik nümayiş etdirməklə müxtəlif zorakı cinayətlər törədirlər.

**Aşağı sosial-adaptivlik qeyri-sabit, situativ tip** cinayətkarlara xasdır. Onlar çox vaxt şəraitdən asılı vəziyyətdə olur, öz emosional iradi sabitliklərini mühafizə edə bilmir, davranışlarına nəzarət etməyi bacarmırlar. Bu səbəbdən də, onlar affektiv təsirlərə, güclü frustrasiyaya asanlıqla məruz qalırlar.

## Cinayət işləməyin psixo-sosial səbəbləri

1. Fərdin inkişafı , necə bir şəxsiyyət kimi yetişməsi ən çox uşaqlıq və gənclik illərində formalaşır. İctimailəşmə müddəti kiçik yaşlardan başlayaraq yetkinliyə qədər davam edir. Daha sonra da yavaş-yavaş inkişafını davam etdirir. Beləcə insan cəmiyyətin bir üzvü olur. Bu dövrdə yaşanan mənfiliklər fərdin şəxsiyyət kimi formalaşmasına mənfi istiqamətdə təsir edir. ***(1-5 yaşlarında öyrənmə matorikası, 6-18 yaşlarda sosiallaşma sürətlidir, sonrakı yaşlarda isə stabil asta sürətlə davam edir)***

2. Bu inkişaf müddəti içində uşaq ana ata ilə yola getmək , ona bənzəmək , onu nümunə götürmək istər. Sevilməyən nümunələr rədd edilir. Beləcə fərd şəxsiyyət xüsusiyyətlərini meydana gətirər.

3. Yetkinlik və gənclik dövrünün insan həyatında əhəmiyyətli bir yeri vardır. Gənc fiziki və cinsi baxımdan böyük dəyişikliklər yaşar , zehni olaraq da bunların fərqinə varmağa başlayır. Sürətli bir zehni inkişaf da yaşıyar. Ancaq hələ kafi təchizatlara sahib deyil . Əgər gənc , təzyiq altında və sərbəst şəkildə böyüməyi dəstəkləməyən bir mühitdə yetişmişsə , ailə və böyüklər yerinə digər qrupların təsirinə heç sorğulamadan asanlıqla qoşula bilər. Beləcə öz şəxsiyyətini isbat etməyə çalışar.

4. İctimai təsir və uyma davranışı , Cinayət və cinayətkarlıq əhəmiyyətli rol oynaya biləcəyi düşünülən bir ictimai psixoloji faktdır. Elmi araşdırmalar insanların müxtəlif mühitlərdə qrupun təsirinə və nüfuza qarşı duramadıqlarını , öz fikirlərini qrupun təsiri istiqamətində dəyişdirdiklərini göstərmişdir. Bu vəziyyət fərdin müxtəlif ortamlardakı faktorlara görə fərqliliklər göstərməsinə zəmin yaradır.

5. Yenə edilən bəzi araşdırmalara görə insanın ətrafından təcrid edilməsi və fərqli məlumat və görüşlər yüklənməsi yolu ilə bütün fikirləri dəyişdirilə bilər. Ancaq belə bir vəziyyətdən təsirlənmənin fərdi fərqlilikləri vardır. Gənclərin və müstəqil şəxsiyyət kimi özünü göstərə bilməyən və təhsil səviyyəsi aşağı kəslər daha çox təsir altına düşür. *(beyin yuma.)*

6. Ailə mühiti, fərdin inkişafına təsir edən ən yaxın və ən təsirli inkişaf mühitidir. İctimai doğru və səhvlər, adət və ənənələr əvvəlcə ailə vasitəçiliyi ilə fərd tərəfindən öyrənilir.
7. Bu sahədə edilən elmi araşdırmaların nəticələrinə görə iki əsas xüsusiyyət fərdin müsbət inkişafını təmin olunmasında vacib faktordur. Bunlar sevgi və yoxlama xüsusiyyətləridir. Uşağa sevgisini ifadə edən və yaşa xüsusi bir şəkildə getdikcə sərbəstləşdirən bir rəhbərlik təmin edən ana- ata davranışı ilə böyüyən fərdlərin bir çox araşdırmada inkişaf xüsusiyyəti baxımından daha müsbət bir mövqedə olduqları görülməkdədir.

8. Həddindən artıq intizamlı , sevgisiz və soyuq ailə mühitlərində böyüyən uşaqlarda isə müxtəlif psixoloji problemlər çox daha yüksək səviyyədə tapılmışdır. Xüsusilə cinayətkar uşaq və gənclərin ailələri araşdırıldığında soyuq, əlaqəsiz və maraqsız ailə mühitləri tapılmışdır. Ailə mühiti baxımından uşağı cinayətə itələyən həddindən artıq intizam qədər diqqətsiz, soyuq, məsafəli davranışların da əhəmiyyətli olduğu bilinməkdədir.

9. Uşağın inkişafında son dərəcə müsbət rol oynayan demokratik , yoxlamalı isti ailə mühitinin bəzi xüsusiyyətləri belə sıralaya bilərik.. Uşağa təzyiq və zor tətbiq edilməməlidir, qaydalar onunla müzakirə edilməlidir, qaydalar və səbəbləri açıqlanaraq ona başa düşəcəyi şəkildə çatdırılmalıdır. Uşağın ailə qərarlarında yaşına uyğun bir şəkildə iştirak etməsi təmin edilməli, ondan məsul yetkin davranışlar tələb olunmalı, mədəni və ortaq fəaliyyətlərdə iştirakı təmin edilməli, dəyər vermə və əhəmiyyət vermə, ünsiyyət qurma, olduğu kimi qəbul etməyə çalışmalı, uşağın müstəqilliyinin inkişafı dəstəklənməli , təhsil standartları qoyulmalı və onlara yönəlməsi dəstəklənməlidir.. Bu cür ailə mühitlərində yetişən uşaqların özünə etibarlı, öz özünü nəzarət, enerjili, şən, problemlərlə baş edə bilən, yoldaşlarıyla və

yaşlılarla yaxşı əlaqələrdə olan, məqsədli, müvəffəqiyyət yönümlü, müstəqil və avtonom xüsusiyyətlər göstərdiyi görülmüşdür. Ayrıca bu cür mühitlərdə yetişən fərdlərdə cinayətə rast gəlinmir.

10. Ailənin təhsil səviyyəsi, gəlir səviyyəsi kimi faktorlar də cinayətkarlıqla bağlıdır.

11. İnsanın təcavüzkarlıq xüsusiyyətini inkişaf etdirərək yetişməsinin də cinayət və cinayətkarlıq davranışı ilə bağlılığı var. Fərdin inkişafına maneə törədən, məqsədlərini və onu məhdudlaşdıran, cəzalar ilə məhdudlaşdıran mənfi mühitlər təcavüzkarlıq şəxsiyyət xüsusiyyətinin inkişafına zəmin yaradar. Ayrıca ailə mühitindətəcavüzkarca davranan valideyn nümunələri bunu daha da qüvvətləndirər.

12. Fərd olma və fərdiləşmə ilk inkişaf illərində sıx olaraq yaşana biləcək bir inkişaf müddətidir. İnsanın avtonom bir fərd olmasını dəstəkləyən mühitlərdə cinayətə meyl azalır.

13. Fərdin cinayətə yönəlməsində cəmiyyətin sosial iqtisadi şərtləri, sürətli ictimai dəyişmələr və köçlər də əhəmiyyətlidir.Araşdırmalar sürətli ictimai dəyişmələrdə, döyüşlərdə, iqtisadi böhranlardan və cəmiyyətlərin qarmaqarışıqlaşması ilə cinayət nisbətlərində artımlar görülmüşdür. ***(uşaqlığı qaçqın və məcburu köçkünlük dövrünə təsadüf edən gənclərdə cinatət meyilli davranışlara daha çox rast gəlinir. PTSP )***

## Nəticə və qiymətləndirmə

Cinayət və cinayətkarlıq doğuşdan bir şəxsiyyət xüsusiyyəti deyil . Cinayətkar, böyük ölçüdə mənfi inkişaf şəraitində yetişmiş , insan olaraq layiq olduğu dəyər və diqqəti almamış bir adamdır. Cinayət işləyənlərin məsuliyyəti böyük ölçüdə ekoloji və ictimai şərtlərdən asılıdır . Bu səbəblə cinayətkarları özündən və cəmiyyətdən kənarlaşdırmaq, onlara düşməncə duyğular bəsləmək və onlardan nifrət etmək yerinə, cinayətin törədilməsindəki alt səbəbləri araşdırmaq, gələcəkdə cinayəti yaradan və cinayətkarı yetişdirən psixoloji mühiti saglamlaşdırmaq, onları gələcəkdə cəmiyyətə qazandırma yolu ilə cinayətlərin azaldılmasında iştirak etmək ictimai təşkilatların məsuliyyəti və vəzifəsi olmalıdır.